# Azərbaycan bölgələrində alman koloniyalarının təşəkkülü

Birinci dünya müharibəsi başlananda köçkünlər rus imperializminin başqa vətəndaşları ilə bərabər müharibədə iştirak edirdilər. Helenendorflular özləri isə ordunu fayton, at, paltar və s. ilə təchiz edirdilər. Qırmızı Xaç cəmiyyətinə və hərbi xəstəxanalara kömək üçün onlar 54000 manat məbləğində pul toplamışdılar. Müharibəni Almaniya başladığına görə rus imperializmi köçkünlərə inamsızlıq göstərməyə başladı. Almanların böyük əksəriyyəti cəmiyyətdən təcrid olunmuşdu. 1915-ci ildə Rusiya dövləti rus himayəçiliyini qəbul edən almanların xüsusi torpaq icmalarının ləğvi haqqında qanun qəbul etdi. Minlərlə alman köçkünlərinə şübhəli şəxslər kimi baxdılar və onları Sibirə sürgün etdilər.

Azərbaycanda digər koloniyalar da mövcud idi. Helenendorf koloniyası ilə bərabər ikinci bir koloniya - Anninfeld koloniyası mövcud olmuşdur. Buraya, əsasən Helenendorfdan olan köçkünlər gəlirdilər. Köçkünlərdən təxminən 107 ailə Şamxorka çayının qərb sahilində məskən salmışdılar. 1897- ci ildə burada müstəqil Qeorgsfeld kəndi yarandı. Sonralar kənd Qeorqievski, 1941-ci ildə isə Leninkənd adlandırıldı. 1911-ci ilin yayında 15 ailə Yelizavetpol quberniyasının Qazax əyalətinə köçdü. Bu, artıq dördüncü koloniya olan Qrünfeld idi. Beşinci koloniya Ayqenfeld Helenendorfun və Annenfeldin qərbində yerləşirdi. Sonralar bu koloniya Engelsfeld, 1941-ci ildə isə hazırda Şəmkirdə bir qəsəbə kimi mövcud olan Engelskənd adlandırıldı. Bu zaman artıq Qazaxda Alekseevka və Trubenfeld kimi koloniyalar da mövcud idi. Bunlardan əlavə Azərbaycanın digər bölgələrində alman koloniyalarının tarixi ilə bağlı olan bir sıra yerlər də vardır.

1912-ci ildə helenendorflular Hacıkəndin salınmasında fəal iştirak edirlər. XIX əsrin 60-cı illərində südçülüklə məşğul olan bir neçə ailə İsveçrədən Helenendorfa gəlir. Bu haqda Ernst Zigentaler "Isveçrəli pendir istehsal edənlər Qafqazda " adlı kitabında geniş məlumat verir.

XX əsrin 20-ci illərinin əvvəllərində 7 alman icmasında 500-dən artıq insan yaşayırdı. Onlar 1500 desyatin torpaqda üzümlüklər salmışdılar. Bu, dağlıq Azərbaycanda çiçəklənən bir oazis idi.

Tiflis quberniyasında 5000 nəfərdən ibarət olan alman koloniyaları var idi.

1909-cu ildə "İsveçrəli südçülər" Yelizavet quberniyasının tərkibində olan Todan təsərrüfatını alırlar. Onun ərazisi 1006 desyatin olmaqla 1300 kv. m. ərazini əhatə edirdi. Bu, təxminən 11 kv. km. ərazini təşkil edirdi. 24 il burada işləyəndən sonra onlar 1935-ci il, aprelin 12-də Todanı tərk edib Helenendorf- Kirovabad- Bakı- Moskva-Minsk-Neqoryeloye- Varşava və Berlindən keçərək yenidən İsveçrəyə qayıtdılar.

1920-ci ildə, artıq yeddi koloniyanın hamısında 5000 koloniyaçı var idi.

Hündür və rahat evlər, enli, uzun küçələr, gözəl bağlar və parklar bu koloniyaları bəzəyirdi. Yaşlı nəsil bunları indi də xatırlayır ki, doğrudan da o zamanlar parklar və küçələr necə də səliqəli, gözəl, koloniyanın adamları necə şən və səmimi, yeməkləri necə dadlı, hava necə təmiz idi. Bütün bunlar hamısı 1941-ci ilin soyuq payız günlərində yox oldu.

Koloniyaçılar qısa müddət ərzində öz koloniyalarını tərk etməli oldular. Onlar ölkənin uzaq rayonlarına sürgün olundular. Bu hadisənin şahidlərini dinləmək indi də adamı dəhşətə gətirir. Alman- azərbaycan nikahından olanlardan da bununla bağlı hadisələri eşitmək adamın qəlbini ağrıdır.

Onların çoxları yolda soyuqdan və xəstəlikdən həlak oldular. Qışda isə çoxu qışın sərt soyuğuna dözə bilmirdi. Alman koloniyasının Azərbaycandakı tarixi bu cür faciəli şəkildə sona çatdı. Lakin bu tarixin izləri bu gün də qalmaqdadır. Uzun və enli küçələr, kilsələr, bağlar, Forer, Hummel, Fottler və başqalarının evləri bu gün də Xanlar, Şəmkir və s. ərazilərdə qalmaqdadır.

Yaşlı adamlar bu gün də koloniyaları, o, ağıllı və sadiq adamları xatırlayırlar. İndi burada tarixi-etnoqrafik muzeyin açılması nəzərdə tutulur. Gəncədə diyarşünaslıq muzeyində "Vətən kitabı"nın müəllifi, biologiya müəllimi Yakob Hummelin həyat və fəaliyyətinə dair böyük sərgi nümayiş etdirilir.

20-30-cu illərdə Y.Hummel öz şagirdləri ilə birlikdə Xanlarda bürünc dövrünə aid olan qazıntı işləri aparmışdır. O, 1938-ci ildə Elmlər Akademiyasının Gəncə şəhərinin tarixini müəyyənləşdirmək üçün apardığı arxeoloji tədqiqat işlərində fəal iştirak etmişdir.Lakin o, 1941-ci ilin oktyabrında koloniyaçılarla birlikdə Qazaxıstana sürgün olundu.

1934-cü ildə müxtəlif məktəblərdə 80% alman uşaqları alman dilində oxuyurdular. Sovet hakimiyyətinin ilk illərində Telefon küçəsindəki kilsədə alman klubu fəaliyyət göstərirdi. Onlar burada alman dili ilə bərabər Azərbaycan dilini də öyrənirdilər.

Daha sonralar alman əhalisi Bakıda iki hissəyə bölündü: zəhmətkeşlər və zadəganlar. Hökumətin fikrincə zadəganlar klub və digər işlərə mane olurdular. Ona görə də Azərbaycan Kommunist Partiyası zəhmətkeşləri zadəganların təsirindən "xilas" etməyi qərara aldı. Əslində isə bu, tamam başqa məqsəd güdürdü.

Alman fəhlə və qulluqçuları isə əslində bütün xalqlarla yaxınlıq etmək, onlarla dostluq şəraitində yaşamaq istəyirdilər. Almanlardan bir çoxu mərkəzi aparatlarda işləyirdilər. Məsələn, F. F. Zeyts, S. Y. Qeorqenberqer,

B. V. Kraytsenger Binəqədi rayonunun birinci katibi və müxtəlif vəzifələrdə çalışırdılar.

1918-ci ilin sentyabrında Bakıda universitet açılır və bu zaman burada 6 alman müəllimi də fəaliyyətə başlayır. Azərbaycanlılar, ruslar və b. ilə yanaşı alman tələbələri də universitetin tarix-filologiya, tibb və başqa fakültələrində və digər institutlarda təhsil almağa başlayırlar.

Əsrlər boyunca bu torpaqlarda məskunlaşmış yerli əhali almanların burada necə həvəslə işlədiklərini, bazar günləri geyinib-keçinib ailəliklə kirxaya getdiklərini, bazar günü müəyyən münasibətlə bayram əhval-ruhiyyəsi ilə çay içdiklərini, qarmonda milli mahnılar çalıb şvab nəğmələri oxuduqlarını maraqla müşahidə edirdilər. Görürdülər ki, onlar özlərinin əsas işləri şərabçılıq və əkinçilik üçün necə can yandırırlarsa, mədəni istirahət üçün də eyni həvəs göstərirlər.

Şəmkir qocaları alman kəndlilərinin əlləri ilə koloniyanın tən ortasında salınmış, sonradan yerlə-yeksan

olmuş parkın barəsində də xiffətlə danışırlar. Deyirlər ki, bura əsl cənnət bağı idi. Orada nadir ağaclar, rəqs və çıxışlar üçün salınmış gözəl meydançalar, büllur sularla dolu hovuzlar və gölməçələr düzəldilmiş, balıqlar bərq vururdu. Qocalar həmçinin şəhərciklərdəki evlərdən ürəklərə sevinc yayan təmizlikdən, yaraşıqlı küçələrdən danışmaqdan doymurlar.

Hər şeyə 1941-ci ilin soyuq oktyabrında son qoyuldu. 1941-ci ildə, Stalinin göstərişi ilə respublika rəhbərliyi, demək olar ki, Azərbaycanda bir nəfər də olsun, alman millətindən olan adam qoymadı. Tələm-tələsik, cəmi üç gün ərzində onlar ancaq icazə verilən şeyləri yığışdırıb hazır olmalı idilər. Onlara heç də bütün ev əşyalarını götürməyə icazə vermirdilər. Çox az şey götürməyə icazə verilirdi. Onları Amudərya və Sırdərya arasında yerləşən boş Qazaxıstan çöllərinə aparan uzun və dəhşətli bir yol gözləyirdi. Onlar ev-eşiklərini elə səliqə ilə yığışdırırdılar ki, sanki bir neçə gündən sonra geri qayıdacaqlar. Onlar ancaq öz qiymətli şeylərini götürməyə çalışaraq qalan ev əşyalarını, mebel, pianino və s. çox ucuz qiymətə qonşulara satırdılar. Almanlar evlərini və koloniyanı çox məğrurluqla tərk edirdilər. Uşaqların əlindən tutub sakitcə, hərdənbir çevrilib evlərinə baxa-baxa 120 il bundan əvvəl olduğu kimi ikinci dəfə uzun yola çıxdılar. Lakin heç kim bilmirdi ki, qarşıda onları nələr gözləyir. Yenidən yad ölkələr.

Onlar yenə də, 120 il əvvəlki kimi tanımadıqları yerlərə yollanırdılar. Ancaq bu mərhələ onların atababalarının acı və ağrılı köçü ilə müqayisədə əsl cəhənnəm idi. Onları hər tərəfi örtülü yük vaqonları ilə aparmışdılar, vaqonlar ağzina qədər dolu idi. Havasız, qidasız, susuz ən elementar sanitar yardımı olmayan bir yolçuluq idi bu yol. Onların çoxu yollarda, qatarları dəyişəndə, təzə yerlərdə məskunlaşanda ölmüşdülər. Çünki ilk vaxtlarda onlar nəmli qazmalarda yaşayır, aclıq çəkir, yayda səhranın qızmar qumlarında yanır, qışda əvvəllər görmədikləri şaxtadan donurdular.

Azərbaycandakı alman icmasının tarixcəsi, bax beləcə, faciəli şəkildə sona çatmışdı. Ancaq onların əllərinin bəhrəsi olan ox kimi dümdüz küçələr, kirxalar, malikanələr, forerlərin, qummerlərin, fottelerlərin gözəl evləri Xanların Birinci, İkinci və Üçüncü küçələrində, Şəmkirdə, Leninkənddə bu gün də qalmaqdadır. Konyak və şərab zavodları hələ də işləyir, onların 20-25 tonluq unikal palıd çəlləkləri, ayrı-ayrı texnoloji sistemləri hələ də istifadə olunur.

Alman icması bu gün Azərbaycanda 700 alman kilsəsini özündə birləşdirir. Bakı kilsəsi almanların mədəniyyət mərkəzinə çevrilib. Bu kilsə rəsmi olaraq yeni apostol kilsəsi kimi qeydiyyatdan keçmişdir. Bu gün burada müxtəlif xalqların - alman, azərbaycan, rus və s. nümayəndələri toplaşır. Onları müqəddəs bir amal birləşdirir - Allah hamı üçün birdir. Biz biri- birimizdən təcrid olunmuş halda yaşaya bilmərik, çünki iki xalqın taleyi birdir. Onlar boş yerə çoxlu qurbanlar vermişlər, onların bir ümumi düşmənləri olub. Bu gün biz yenidən birlikdə çalışıb heç olmasa bu illərdə itirilmiş mənəvi itkilərimizi geri qaytarmalıyıq.

1917-ci ildə bolşeviklər Rusiyada hakimiyyəti öz əllərinə aldılar. Bu zaman Azərbaycan da müstəqil bir dövlət kimi öz hakimiyyətini əldə etməyə nail oldu və 1918-ci il may ayının 28-də Azərbaycanda Azərbaycan Demokratik Respublikası (ADR) yarandı. ADR-in yüksək mədəni və demokratik siyasəti Azərbaycanda olan bütün azsaylı xalqlara özlərinin hakimiyyətini və mədəniyyətini inkişaf etdirməyə imkan yaratdı. Azərbaycan parlamenti alman köçkünlərinin də mədəniyyətinin, iqtisadiyyatının və ümumi həyat səviyyəsinin yüksəlməsinə çox böyük fikir verirdi. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamenti açıldı. Azsaylı millətlərin nümayəndəsi kimi Gəncə quberniyasının Helenendorf kəndindən olan kənd ağsaqqalı Lorents Yakovleviç Kun Parlamentin üzvü seçildi. O, eyni zamanda parlamentin aqrar komissiyasının tərkibinə də seçildi.

Alman köçkünlərinin özləri bu hadisəni çox yüksək qiymətləndirərək, belə bir qərar qəbul etdilər: "Kənd ağsaqqalı L. Y. Kun Azərbaycanın Helenendorf ərazisindən Azərbaycan parlamentinə deputat seçilsin." (26 noyabr 1918-ci il tarixli Alman Milli şurası iclas protokolundan çıxarış. Helenendorf koloniyası).

Alman nümayəndələri parlamentin və hökumətin bütün işlərində çox fəal iştirak edirdilər. Məsələn, 1918-ci ilin mart hadisələrində erməni daşnaklarının müsəlmanların başına gətirdikləri faciələrin təhqiqatında A. E. Kluqe xüsusi fəallıq göstərmişdir.

1919-cu ilin iyun ayında Helenendorfun 100 illiyi təntənə ilə qeyd olunurdu. Bu ideya Azərbaycan parlamentində geniş surətdə əks-səda doğurdu və almanlar bu yubileyi təntənəli surətdə bayram etdilər. Azərbaycan parlamentinin sədri köçkünlərin ünvanına təbrik teleqramı göndərdi. "Helenendorf, Koloniya, Gəncədən, Komitənin sədrinə. Azərbaycan parlamentinin rəyasət he'yəti Koloniyanın 100 illiyi münasibətilə Helenendorfun sakinlərini təbrik edir və bu kiçik əraziyə böyük nailliyyətlər və tərəqqi arzulayır. Parlamentin sədri Ağayev. 8 may 1919 ".

Bayram proqramı çox mənalı və təsirli təşkil olunmuşdu. Bayram koloniya sakinlərinin nümayişi ilə başladı. Kilsədə ibadətdən sonra təntənəli yığıncaq oldu və qonaqların şərəfinə nahar verildi, sonra məktəblilərin əl işləri sərgisinə baxış keçirilirdi. Şənliyin kulminasiya nöqtəsini Lorents Kun tərəfindən qonaqların Helenendorfun tarixi ilə tanışlığı təşkil etdi.

***Bu gün Qarabağda gedən qanlı müharibənin bütün iştirakçıları bir arzu ilə yaşayır: dünyamız yenə xeyirxah və ədalətli, insanlar isə ona layiq olmalıdır. Qoy vaxtilə müharibənin əvvəllərində buradan sürgün olunmuş sovet almanlarının nəvə-nəticələri istəyirlərsə, öz torpaqlarına qayıtsınlar. Bu torpaq yenə də onlara ikinci vətən olar. Onlar yerli azərbaycanlılarla çiyin-çiyinə verib, qonşuluqda yaşayarlar. Müharibə nə qədər ağır olsa da, əvvəl-axır qurtaracaq və bizim günəşli qonaqsevər Azərbaycan torpağına sülh və səadət gələcək. Bu yurd əli düz və əməksevər insanların üzünə hər zaman açıqdır. Qoy onlar tariximizi olduğu kimi, bütün faciələri ilə birlikdə obyektiv qiymətləndirməyi bacarsınlar.***

***Çingiz ABDULLAYEV,***
***texniki elmlər namizədi***

**Ədəbiyyat**

**1. Ç. Abdullayev, B. Quliyev. Almanlar Azərbaycanda. B.1992.**
**2. S. Zeynalova. Azərbaycanda alman kaloniyaları. B.2002.**